

# Azərbaycan neft-qaz sənayesində qazma işlərinin tarixi, bu günü və perspektivləri

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi və cənab Prezident İlham Əliyevin uğurla reallaşdırdığı iqtisadi inkişaf modelinin özəyini təşkil edən "Əsrin müqaviləsi" öz müstəsna tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindəndir. Müdriklik və uzaqgörənliklə uğurlu gələcəyə hesablanan bu saziş ənənəvi neft-qaz ölkəsi olan Azərbaycana əvvəlki şan-şöhrətini qaytarmış, bugünkü müstəqilliyimizin qarantı olan yeni neft strategiyasının əsasını təşkil etmişdir.**

## Tarixə bir nəzər

Azərbaycan qədim neft diyarıdır. Tədqiqatçıların qeyd etdiyinə görə hələ eramızdan çox-çox əvvəllərə gedib çıxan bu tarix neft Bakısının şöhrətini dünyaya tanıda bilmişdir. Ərəb tarixçiləri, coğrafiyaşünasları və səyyahlarının, Qərbin, o cümlədən yunan, italyan, alman tədqiqatçılarının, səyyahlarının, həkim və təbiətşünas alimlərinin əsərlərində Abşeron neftinin dəvə karvanları ilə İrana, Orta Asiyaya və Hindistana və Qərb dövlətlərinə aparılması, Balaxanı, Binəqədi, Suraxanı yataqlarından "qara" və "ağ" neftin çıxarıldığı mədənlər haqqında məlumatlar vardır.

Neftin 1847-1848-ci illərdə ilk dəfə Bibiheybət və sonra Balaxanı yataqlarında mexaniki üsulla qazıntısı ilə sənaye əhəmiyyətli neft emalına başlanmış, elə o vaxtdan da Azərbaycanın neft sənayesinin inkişafının əsası qoyulmuşdur. Neftin emalı və satışının formalaşması Azərbaycanda milli burjuaziyanın güclənməsinə də təsir göstərmişdir. XIX əsrin sonlarında neft sənayesindəki 167 sahibkarın 49-u azərbaycanlı olmuşdur. Neft sənayesinin inkişafında Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, İsa bəy Hacınski, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Seyid Mirbabayev kimi yerli neft milyonçularının əvəzsiz xidmətləri olmuşdur. Eyni zamanda milliyyətcə isveç olan Nobel qardaşlarının Bakıya gəlişi neft sənayesində yüksəlişin yeni mərhələsi olmuşdur. 1876-cı ildə Nobel qardaşları Bakıda neft hasilatı və emalı üzrə şirkət yaratmışlar.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra -- 1920-ci ildə neft sənayesinin milliləşdirilməsinə başlandı. Bu, bir sıra yeni neft yataqlarının aşkar edilib istismara verilməsində mühüm mərhələ oldu. 1941-ci ildə neft hasilatı 23,6 milyon tona çatdırıldı ki, bu da o dövrdə SSRİ-nin neft hasilatının 76 faizini təşkil edirdi.

Bütün dünyanın qəbul etdiyi həqiqətdir ki, Azərbaycan neftinin İkinci dünya müharibəsindəki əvəzsiz rolu faşizm üzərində qələbəni təmin etmişdir. 1949-cu ildə Neft Daşlarında ilk quyunun istismara verilməsi ilə dənizdə neftçıxarmanın əsası qoyuldu. Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsi ilə neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başladı.

Bu sətirləri yazdıqca Azərbaycanı dünya neft sənayesinin beşiyi kimi tanıdanlardan, Bakı neftinin taleyini özünün həyat amalı seçən Xoşbəxt Yusifzadə ilə 5 il əvvəlki görüşümü xatırladım. Xoşbəxt müəllim deyirdi: bu tarixə kimi Xəzər dənizində istifadə olunan texnika 40 metrə qədər dərinliklərdə işləməyə imkan verirdi. Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində 70-80-ci illərdə 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, o cümlədən 2500 ton gücündə "Azərbaycan" kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növlərinin, dənizin 200 metr dərinliyində işləməyə imkan verən "Xəzər" tipli özüqalxan, "Şelf" tipli üzən qazma qurğularının alınması dənizin daha dərin qatlarında zəngin neft və qaz yataqlarının kəşfinə imkan yaratdı. Nəticədə neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artdı. Bu dövrdə dünyada analoqu olmayan və Həştərxanda tikilməsi planlaşdırılan Dərin Dəniz Özülləri Zavodunun Bakıda tikilməsi neft-qaz sənayesinin inkişafında yeni mərhələ oldu. Bu tikinti üçün 450 milyon ABŞ dollarının ayrılması, hətta icazənin alınması belə Heydər Əliyevin möhkəm iradəsi və cəsarəti sayəsində baş tutdu.

## Qazma və quyu xidmətləri göstərən birgə müəssisə

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Abşeron Qazma Şirkəti tərəfindən 2007-ci ildə təsis edilmiş SOCAR AQŞ MMC qazma və quyu xidmətləri göstərən birgə müəssisə kimi fəaliyyət göstərməkdədir. SOCAR AQŞ də "Əsrin müqaviləsi"nin yetirməsidir, şübhəsiz ki, bu müqavilə olmasaydı, ölkəmizin taleyində önəmli yer tutan yüzlərlə layihədən biri kimi bu şirkətin də yaradılması və fəaliyyəti mümkün olmazdı.

Təsis olunduğu gündən SOCAR AQŞ-yə Ramin İsayev rəhbərlik edir. Elə ilk tanışlıqdan xoş təəssürat yaradan baş direktorun kifayət qədər ünsiyyətcil, həmsöhbətinə yüksək dəyər verən bir şəxs olduğu görünür. Mətbuat Günü münasibəti ilə şirkətin keçirdiyi tədbirdə tanış olduğum Ramin müəllim uzun illərdən bəri tanıdığım doğma bir insan təəssüratı yaratdı. Gənc olmasına baxmayaraq, kifayət qədər zəngin təcrübəyə malik olduğu görünür. Harvard Universitetinin Con Kennedi adına Dövlət İdarəçiliyi Məktəbinin məzunu və Mərkəzi Avrasiya Liderlər Alyansının üzvüdür. Zəngin təcrübə, rəhbərlik karyerasından uğurlu istifadə baş direktorun fəaliyyət imkanlarını genişləndirmiş, rəhbərlik etdiyi şirkəti təkcə respublikada yox, respublikanın hüdudlarından kənarda da tanıtmışdır. Kecən il SOCAR AQŞ və Bangladeş Neft Kəşfiyyatı və Hasilatı Şirkəti (BAPEX) arasında Banqladeş Xalq Respublikasının yeni neft-qaz layihələrində birgə iştirak üzrə Anlaşma Memorandumu imzalanmasında baş direktorun da xidməti az olmamışdır. BAPEX şirkətinin elan etdiyi beynəlxalq tenderdə qalib olan SOCAR AQŞ Banqladeş Xalq Respublikasının qaz yataqlarında qazma və quyu tikintisi xidmətlərini yerinə yetirəcəkdir.

Qazma və mühəndislik xidmətləri sahəsində dünyanın aparıcı podratçılarından olan KCA Deutag şirkəti ilə SOCAR AQŞ-in yaratdığı birgə müəssisə Xəzər regionunda qazma və mühəndislik xidmətləri sahəsində mövcud və gələcək imkanları hədəfləməkdədir. Yeni yaradılan birgə müəssisə Azərbaycan vətəndaşları üçün yeni iş imkanlarının yaradılması, onların bilik və bacarıqlarının inkişafı və yerli xidmət sahələrinin təkmilləşdirilməsi istiqamətində Azərbaycan iqtisadiyyatına töhfə verməyi qarşısına məqsəd qoyur.

Şirkət hazırda Xəzərdə 4 neft və qaz yatağında, o cümlədən dayazsulu ''Günəşli" yatağında yerləşən 7 və 11 saylı, "Qərbi Abşeron" yatağının 10 saylı, ''Ümid'' yatağının 1 saylı və ''Bulla'' yatağında 6 saylı Dəniz Stasionar Özüllərində (DSÖ) qazma işləri aparmaqdadır. 1077 nəfərin çalışdığı şirkətin əməkdaşlarının əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Kollektivə və rəhbərlik etdiyi şirkətə böyük ümidlərlə yanaşan baş direktor müraciətlərinin birində bildirir ki, qazma müəssisəsi kimi SOCAR AQŞ milli neft-qaz sənayesinin mütəmadi inkişafına layiqli töhfələrini verir. Xəzərin Azərbaycan sektorunda 5 yataqda və xaricdə apardığımız uğurlu qazma işlərinin nəticəsi bizə qürurla deməyə əsas verir ki, milli, regional və beynəlxalq səviyyədə həyata keçirilən enerji layihələrində SOCAR AQŞ kollektivinin də böyük əməyi vardır. Müxtəlif geoloji qurluşa malik yataqlarda apardığımız əməliyyatlar sifarişçilərimiz tərəfindən diqqətlə izlənilir və vaxtaşırı olaraq texniki heyətimiz müxtəlif mötəbər mükafatlara layiq görülür.



## Milli qazma müəssisəsinin uğurları

SOCAR prezidenti Rövnəq Abdullayevin Beynəlxalq Qazmaçılar Assosiasiyasının konfransına ünvanladığı məktubda qeyd edilir ki, Azərbaycandakı neft yataqlarından indiyə kimi 2 milyard tondan çox neft, 828 milyard kubmetr qaz hasil olunub. 2000-ci ildən bəri SOCAR-ın müəssisələri 2.6 milyon metr qazma işləri həyata keçirib və 1490 hasilat quyusu qazılıb.

Azərbaycanda hər il 70-80 quyu istismara verilir. Tarixən olduğu kimi indi azərbaycanlı mütəxəssislər Xəzər dənizinin ən mürəkkəb yataqlarında çalışırlar. Hazırda Azərbaycan İADC adı ilə tanınan Beynəlxalq Qazmaçılar Assosiasiyasında qazma sənayesində zəngin ənənələrə sahib olan ölkə kimi məşhurdur. SOCAR-ın sponsor olduğu Beynəlxalq Qazmaçılar Assosiasiyasının konfransında çıxış edən SOCAR AQŞ-nin baş direktoru Ramin İsayev deyilənləri təsdiq etməklə, bildirib ki, indi Azərbaycanın qazma məktəbi formalaşıb. Bu məktəb yalnız Azərbaycan deyil, ümumilikdə Xəzər regionu üçün gələcək nəsil qazmaçıların yetişdirilməsində mühüm rol oynayır.

SOCAR AQŞ 2009-cu ildən İADC-ın üzvüdür. Dənizdə neft və qaz quyularının qazılması və quyu təmiri xidmətlərinin göstərilməsi, kəmər endirmə, atqıya qarşı avadanlıqların və quyuağzı avadanlıqların təmiri və sınağı xidmətlərinin göstərilməsi üçün ISO 9001:2008, ISO 14001:2004 və OHSAS 18001:2007 beynəlxalq standartlarına layiq görülmüşdür. 2010-cu ildə Yeni Qazma Texnologiyalarının və yeni İdarəetmə Metodlarının Tətbiqi nominasiyası üzrə Caspian European Club tərəfindən "İlin şirkəti" adını, ardıcıl olaraq 2011- 2013-cü illərdə "İlin qazma şirkəti" mükafatlarını almışdır.

Azərbaycan qazma sənayesinin ənənələrini müasir dünya qazma sənayesində davam etdirən SOCAR AQŞ 2015-ci ildə BP Azərbaycan şirkətinin yerli müəssisələr arasında elan etdiyi "Sahibkarlığın İnkişafı Mükafatı 2015" müsabiqəsinin "Qabaqcıl texnologiyaların uğurlu tətbiqi" nominasiyası üzrə "İlin şirkəti mükafatına" layiq görülmüşdür. Elə həmin il SOCAR AQŞ ilk milli qazma müəssisəsi olaraq BP Azərbaycan və onun tərəfdaşları tərəfindən maliyyələşdirilən Sahibkarlığın İnkişafı və Təlimi Proqramını (EDTP) uğurla başa çatdırmışdır.

SOCAR AQŞ 2015-ci ildə BP Azərbaycanın yerli müəssisələr arasında elan etdiyi Qabaqcıl Texnologiyaların Uğurlu Tətbiqi nominasiyası üzrə "İlin şirkəti" mükafatını almışdır. 2016-cı ildə "Caspian Business Award - 2016" mükafatına layiq görülərək "İlin qazma şirkəti" elan edilmişdir. 2017-ci ildə dənizdə neft - qaz quyularının qazılması və quyu təmiri xidmətlərinin göstərilməsi sahəsi üzrə API Spec Q2 Keyfiyyət İdarəetmə Sisteminin tələblərinə əsasən xüsusi sertifikata layiq görülmuşdür.

## Təşəbbüskar və yaradıcı gənclərə dəstək

SOCAR AQŞ milli qazma müəsisəsi olaraq neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində apardığı işlərə də xüsusi önəm verməkdədir. Məhz buna görə də mövcud imkanların artırılmasına yönəlmiş təşəbbüsləri və proqramları daim dəstəkləyən şirkət dünyanın aparıcı universitetlərindən olan Massaçusets Texnologiya İnstitutu ilə MİT–Azərbaycan Fondunu yaratmışdır. Keçən il ADA Universitetində ilk MİT– Azərbaycan Startup laboratoriyasının təqdimatı keçirilib. Bu layihə vasitəsi ilə ADA, Xəzər, Bakı Mühəndislik, Bakı Dövlət, Azərbaycan Dövlət İqtisad, Azərbaycan Dövlət Neft və Sənaye universitetləri, Bakı Ali Neft Məktəbi, Milli Aviasiya Akademiyası kimi ali məktəbləri, Startup mərkəzlərini bir araya gətirən şirkət biznesin və sahibkarlığın inkişafını dəstəkləmişdir.

Bir neçə ildir ki, SOCAR AQŞ ali məktəblərin 3-cü və 4-cü kurslarında, eləcə də magistr dərəcəsində təhsil alan tələbələrin Yay Təcrübə Proqramını həyata keçirir. İxtisasını daha dərindən öyrənməyə çalışan, təşəbbüskar, yaradıcı gənclər üçün müəssisənin müxtəlif strukturlarında təcürbə keçmək üçün geniş imkanlar yaradılmışdır. Maraqlıdır ki, SOCAR AQŞ-də istehsalat təcrübəsi keçmək üçün təkcə ölkəmizin ali təhsil müəssisələrindən yox, eləcə də Avropa və Asiyanın onlarca təhsil ocaqlarından müraciətlər daxil olmuşdur. İsveçin Mälardalen və Böyük Britaniyanın Heriot-Watt universitetlərinin tələbələri 2017-ci il Yay İstehsalat Proqramında iştirak etmişlər. Keçən ilin iyul-avqust aylarında SOCAR AQŞ-də 35 tələbə gənc yay istehsalat təcrübəsi keçmək hüququ qazanmışdır.

Şirkət həmçinin neft-qaz ixtisası üzrə təhsil alan tələbələr üçün "SOCAR AQŞ təqaüdü" təsis etmişdir. 2018-2019-cu tədris ilinin yekunlarına görə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin iki və Bakı Ali Neft Məktəbinin iki tələbəsi tələbə təqaudü proqramının qalibi olmuşdur.

## İlklərə imza atan şirkət

Azərbaycanda ilk ixtisaslaşdırılmış beynəlxalq tədbir olan Beynəlxalq Xəzər Neft və Qaz konfransının bürünc sponsoru olan SOCAR AQŞ-də qabaqcıl standartlaşdırma üsullarının tətbiqi konfransın moderatoru – SOCAR-ın geologiya və geofizika məsələləri üzrə vitse-prezidenti Bəhram Hüseynov tərəfindən yüksək qiymətləndirilmiş və bu dəyər SOCAR AQŞ-nin milli qazma sənayesindəki yenilkçi statusunu bir daha təsdiq etmişdir.

2008-ci ildən bu vaxta qədər SOCAR AQŞ "Günəşli" yatağında 20-dən çox neft quyusunu təhlükəsiz və keyfiyyətlə qazaraq sifarişçilərin istifadəsinə vermişdir. Müəssisə "Qərbi Abşeron" yatağının tam potensialının aşkara çıxarılması istiqamətində bir sıra ilklərə imza atıb. 10 saylı özülün sahə qazma geoloqu Arif Səfərov müsahibəsində bildirib ki, "Qərbi Abşeron" yatağında apardığımız geoloji-geofiziki tədqiqatlar sayəsində əldə olunan uğurlu nəticələr yatağın tarixində yeni dövrün başlanmasına təkan verəcək. Yataqda baş verə biləcək geoloji mürəkkəbləşmələrin öncədən qarşısının alınması mümkün olacaq və bunun sayəsində quyuların təhlükəsiz qazılması, işlənməsi və işlənmə rejimlərinin düzgün seçilməsi, o cümlədən qaz-kondensat ehtiyatlarının mənimsənilməsi əhəmiyyətli dərəcədə artacaqdır.

Qazma sənayesinin inkişafına yeni töhfələr verən şirkətin uğurları ilbəil artmaqdadır. Azərbaycan qazma sənayesində ilk dəfə olaraq SOCAR AQŞ 2017-ci ildə "Bulla" yatağının axtarış quyusunun tikintisi zamanı dərin quyularda qoruyucu kəmərin iki mərhələdə endirilməsi ənənəsinə son qoyulmuşdur. Xəzər dənizinin Azərbaycan sektorunda yüksək təzyiqli və temperaturlu quyuların qazılması zamanı və o cümlədən "Bulla" yatağı üzrə beynəlxalq standatlara cavab verən süxur nümunələrinin götürülməsini ilk olaraq SOCAR AQŞ həyata keçirmişdir. Müəssisənin imza atdığı ilklərdən biri də qazma zamanı quyu luləsi boyu əlavə geofiziki tədqiqat işlərinin aparılması, intervallar üzrə lay təzyiqinin ölçülməsi olmuşdur.

Beynəlxalq qurum kimi fəaliyyətini durmadan genişləndirən SOCAR dünya enerji sektorunda özünə layiqli yer tutmuşdur. Xarici ölkələrdə həyata keçirilən investisiya layihələri Azərbaycanın strateji inkişafına zəmin yaradır, enerji sahəsində əməkdaşlıq xalqlar arasında uzunmüddətli münasibətlərin yaranmasına xidmət edir. Bu ənənələrə arxalanan SOCAR AQŞ də fəaliyyətini həm ölkə, həm də xarici neft bazarlarında layiqli yer tutmağa və möhkəmlənməyə hədəfləmişdir.

***Namiq ƏHMƏDOV,***
***"Xalq qəzeti"***

**Məqalə Azərbaycan Mətbuat Şurası və "SOCAR-AQŞ" MMC-nin "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyi münasibəti ilə keçirdiyi yaradıcılıq müsabiqəsinə təqdim olunur.**